# Ağrılı şeirlər




Uşaqlıqdan poeziya vurğunu olan Zakir Ağdamlı, hələ gənc çağlarından özü də arabir şeirlər yazmağa başlamışdır.

Şeirləri müxtəlif mətbu orqanlarında mütamadi olaraq nəşr olunan Zakir Ağdamlı iki - "Qəlbimin aynası" (1999) və "İlahi, dağlara qovuşdur məni" (2011) adlı şeir kitablarının müəllifidir.

2011-ci ildə "ŞUR" nəşriyyatında işıq üzü görən "İlahi, dağlara qovuşdur məni" kitabı 200 fiziki səhifədən, 12.5 şərti çap vərəqindən ibarət olmaqla, yeddi - "Əzəldən mənimçün sirdi bu dünya", "Qəlbi bağlı bülbülüyəm o dağların, bu dağların", "Nəğməli bülbüldün, ətirli güldün", "Rəsul Allahından istəsə əgər, daşın üstündə də çiçək bitirər", "Adlı-ünvanlı şeirlər", "Torpaq nisgilli, yurd həsrətli", "Gələcəyəm, qarabağım" - bölmədən ibarətdir.

Kitaba "Yana-yana yaşayan ovqat şairi" sərlövhəli ön söz yazan şair-publisist Eldar İsmayıl - "Zakir Ağdamlının şeirləri həsrət, nisgil üstə köklənmiş... və ...şairin poetik düşüncələri təbiidir, yadda qalandır." - yazır.

Eldar İsmayıl öz yazısında Xalq şairi Məmməd Arazın Zakir Ağdamlının şeirlərinə yazdığı kiçik - "Zakir Ağdamlı həkimdir. Həkim sənəti insana poeziya sənəti qədər yaxındır. Həkim də insan qəlbinə "boylanır", şair də. Poetik söz də dərman olur, qeyri-poetik həkim məsləhəti də. Zakir Ağdamlının, necə deyərlər, avazı xoşuma gəlir..." - rəyinə də yer ayırmışdır.

Zakir Ağdamlının şeirləri səmimi sevgi hopmuş sətirlərdən ibarətdir. Bu sevgi-ana sevgisi, Vətən sevgisi, yurd sevgisi, insana sevgi, təbiətə sevgi, qadın sevgisi, nən başlıcası isə İrfani sevgidən ibarətdir.

Şairin ana ünvanlı şeirini oxuyanda, göz önündə fədakar bir ananın obrazı canlanır..

*...Adı Gülçöhrəydi, lap yaranışdan,*
*Adına bənzərdi davranışı da.*
*Əziyyət çəkmədik soyuqdan, qışdan,*
*Yaza çevirdi o qarlı qışı da...*

Ovqat insan ruhunun monometridir. Bəzən ovqatımızın haldan-hala düşməsinin, sevinclə və ya qəmlə yüklənməsinin fərqinə vara bilmədiyimiz halda, Zakir Ağdamlı ovqatın "tərif"ini - əgər belə demək olarsa - özünəməxsus bir şəkildə verə bilmişdir ki, bu da məncə, onun həkimliyindən irəli gələn bir amildir.

*Ovqat elə şeydir, baş açmaq olmur,*
*Birdən çoxa, birdən aza köklənir.*
*Ovqatın baxçası saralmır, solmur,*
*Zilə, bəmə - hər avaza köklənir...*

Şair müşahidə etdiyi, bu və ya digər hadisələrə də laqeyid qala bilmir.

Dalda giley, üzdə hörmət,
Pul sayılır bizdə hörmət.
Qalmayıbdı sözdə hörmət,
Bu halətdən incimişəm...

Onun şeirlərində Vətən nisgili, torpaq həsrəti, doğulub, boya-başa çatdığı yurda olan sevgi, geniş mənada Qarabağ sevgisi qabarıq şəkildə təcəssüm olunur.

*Gah bir dağam, başı qarlı,*
*Gah da çənəm, yüz çalarlı.*
*Bülbül təki intizarlı,*
*Quşam Vətən torpağında.*

Zakir Ağdamlının "İlahi, dağlara qovuşdur məni" kitabına "Son söz əvəzi" yazan şair Musa Ələkbərli - "Öz dərdlərini dünyanın dərdlərinə qarışdırıb yazır Zakir Ağdamlı, bir fərdin kədərini, qüssəsini hamınınkı eləməyə çalışır və çox zaman da buna nail ola bilir" - deyə xarakterizə edir onun yaradıcılığını...

**Fəxrəddin MEYDANLI**

kaspi.-2016.-22-24 oktyabr.-S.22.